# MOLLA PƏNAH VAQİF YARADICILIĞINDA AZƏRBAYCAN TƏBİƏTİNİN TƏRƏNNÜMÜ

***Aynur Famil qızı Paşayeva***

*Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri,*

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

*aynurfamilgizi@gmail.com*

XVIII əsr Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Molla Pənah Vaqif öz bədii yaradıcılığında bənzərsiz poeziya nümunələri yaratmaqla milli ədəbiyyatın yeni istiqamətdə inkişafına güclü təkan vermiş, Azərbaycan bədii söz və fikir tarixində özünəməxsus xüsusi rolu olmuşdur. Xalq həyatını, milli adət-ənənələri, təbiətin bütün zahiri gözəlliyini, mənəvi aləmi, sadə və təbii el gözəllərini ilhamla tərənnüm etmiş, gerçəkliyi real şəkildə əks etdirməyi bacarmış, çoxəsrlik klassik Azərbaycan poeziyasının Vaqif zirvəsinə ucalmışdır. Vaqif yaradıcılığı "*bədii ədəbiyyatımızda yeni bir cığırın formalaşması ilə, ədəbi-bədii dilimizdə yeni, qabaqcıl bir üslubun yaranması ilə nəticələnmişdir*" [2, s. 242]. Azərbaycan ədəbiyyatı tarixinə, o, heca vəznli realist şeirin və erkən realizm ədəbi cərəyanının yaradıcısı kimi daxil olaraq dövrün ədəbi-bədii dilini ümumxalq dili vahidləri hesabına daha da zənginləşdirmişdir.

Vaqif yaradıcılığının əsasını qoşmalar təşkil edir. Şair real varlığı obrazlı, daha canlı əks etdirmək üçün sözlərin müxtəlif məna çalarlıqlarından məharətlə istifadə edərək bədii ifadəlilik yaratmış, qoşma üslubunun dilini daha da canlandırmışdır. Məsələn:

Bulud zülflü, ay qabaqlı gözəlin,
Duruban başına dolanmaq gərək.
Bir evdə ki belə gözəl olmaya,
O ev bərbad olub talanmaq gərək [4, s. 49].

Şair bir yandan insan gözəlliyi ilə təbiət gözəlliyi arasında harmoniya yaradaraq gözəlin sıx, dalğalı zülfünü buluda, üzünün nurlu, işıqlı olmasını aya

bənzədərək bədiiliyi artırır və ruhu canlandırır, digər yandan isə gözəlsiz evi talanmış, bərbad olmuş ev kimi təsvir edirdi. Bəzən şair bədii dil üçün əlamətdar olan epitetlərə geniş yer verir, yazı üslubunu dövrün aktiv üslubuna çevirirdi:

Biri laçın gözlü, tərlan qəmzəli,
Biri qırğı başlı, sona cilvəli,
Biri tuti dilli, şirin kəlməli,
Biri qənd ağızlı, nabat dodaqlı [4, s. 138].

Azərbaycanın bir çox qədim şəhərlərinin, vilayətlərin Vaqif yaradıcılığında yer alması onun ölkə həyatına dərindən bələd olduğunu göstərir və eyni zamanda, şairin Azərbaycanda baş verən ictimai-siyasi prosesləri yaxından izlədiyini və hadisələrə konkret münasibətini nəzərə çatdırılır:

Təbriz, Şəki, Gəncəvü, Kabil şəhərinə,
İran ilə Turan, Hələbü, Məkkə, Mədinə…
Tiflis, Irəvan, Şamü Cəbəl, cümlə Trabzan,
Dərbənd, Quba, Bakı, Şamaxilə Sifahan,
Yüz seyr oluna külli-Dağıstan ələ düşməz [4, s. 172].

Vaqif yaradıcılığını tədqiqi zamanı qeyd olunur ki, “*ölkə anlayışı və konkret olaraq "ölkə" sözü Azərbaycan ədəbiyyatına Molla Pənah Vaqif tərəfindən gətirilmişdir. İlk dəfə Vaqifin səsləndirdiyi "ellər yaraşığı, ölkə gözəli" sözləri ilə ədəbiyyatda ölkə sözü ədəbi dövriyyəyə daxil edilmişdir*” [3, s. 16].

“Külli-Qarabağın abi-həyatı”nı ilhamla tərənnüm edən şairin bədii baxışlarında Qarabağ qəlbinin ən dərinliklərində yaşayan, müqəddəsləşən Vətən torpağıdır və “nərmü nazik bayatı” kimi bütün məclislərin xoş sözü-avazıdır:

Külli-Qarabağın abi-həyatı,
Nərmü nazik bayatıdır, bayatı.
Oxunur məclisdə xoş kəlimatı,
Ox kimi bağrımı dələr ağlarsan! [4, s. 222]

Şair müasiri Molla Vəli Vidadi ilə deyişməsində bu misraları dilə gətirərək Qarabağın füsunkar təbiəti ilə yanaşı, “oxunur məclisdə xoş kəlimatı” fikri ilə

Qarabağın milli musiqi, sənət, mədəniyyət beşiyinin olması reallığını əks etdirir, Qarabağ xanlığının Azərbaycan tarixindəki əvəzsiz rolunu vurğulayırdı.

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim,
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən, gəldim.
Qızıl gül açılan günlərdə gülzari-Qarabağa,
Sənin olsun, əzizim, böylə məlumun ki, mən gəldim [4, s. 161].

Vaqif yaradıcılığında Qarabağın füsunkar təbiətinin tərənnümündə, gözəlliyin vəsf edilməsində sanki mahir bir rəssam kimi çıxış edir, sözün bədii imkanlarından geniş istifadə edərək Azərbaycan təbiətinin rəngarəng, cazibədar portretini yaradırdı. Bu da şairin vətənpərvərliyindən, vətənə olan sonsuz sevgisindən irəli gəlirdi:

Məkan tutdisə Vaqif, yox əcəb, bu Şişə dağında,
Məqami ləli-gülrəngin miyani-səngi-xaradır [4, s. 152].

Baharın gəlişi, təbiətin oyanması, canlanması ilə bağlı şənliklərin təsviri Vaqif yaradıcılığına xüsusi rəng qatır və şair bu hadisələri realist mövqeyindən işıqlandırırdı. Onun məşhur “Bayram oldu” şeiri milli dəyrimiz olan Novruz bayramı mövsümünün qeyd olunmasının realist poetik mənzərəsidir:

Bayram oldu, heç bilmirəm neyləyim,
Bizim evdə dolu çuval da yoxdur.
Dügiylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur [4, s. 113].

Göründüyü kimi, şairin məşhur bu şeiri kasıb ailələrin Novruz bayramını keçirərkən qarşılaşdığı çətinliklər realist formada qələmə alınır, bir ailədə bayram üçün şəkər, noğul, qənd, düyü, yağ, motal, dolu çuval olmasa da və şeir tənqidi ruhda yazılsa da, məzmununa bir bayram əhvali-ruhiyyəsi hopdurulur, duyulur. “Bu gün” rədifli qoşmasında isə Vaqif öz gözəllik fəlsəfəsinə uyğun olaraq, Novruz bayramının gözəl adətlərini, insanlar arasındakı yaratdığı coşqunu, təbiətdə baş verən canlamanın insana gətirdiyi sevinci, xoş anları vəsf edilmişdir:

Yenə bayram oldu xublar evində,
Sanasan, açılıb tazə gül bu gün.
Bənəfşə zülfləri alasan ələ,

Şanə tək gəzəsən telbətel bu gün [4, s. 87].

Xalq həyatını böyük ilhamla tərənnüm edən şair mənsub olduğun xalqın etnoqrafiyasını, folklorunu, milli ruhunu, bütün real gerçəklikləri, bütün incəliklərini dərindən dərk edərək şeirlərində geniş şəkildə təbliğ edirdi. Onun gözəlik fəlsəfəsi, düşüncəsi təbii, sadə motivlər üzərində qurulan həyat fəlsəfəsi idi. Hər bir misrasında dərin məzmun var idi. Belə ki, şairin yaxın dostu "Müştaq" təxəllüsü ilə şeirlər yazan Şəki xanı Hüseyn xanın ona kürk və tüfəng hədiyyə göndərməsi münasibətilə təbiətin sərt, soyuq qış havasını qarşılaşdırmış, sadə insanın düşdüyü vəziyyəti təsvir etmişdir:

Fəxr qıl kim, padişahlardan gəlir paşayə kürk.
Qış günü çünki dönər şol cənnətül-məvayə kürk,
Ol səbəbdən layiq olmuş firqeyi-mollayə kürk,
Görünür ədna əgərçi himməti-valayə kürk…
Yazadək kimsə mənə otaq təmir etməsin,
Sovuğun hər nə əlindən gəlsə, təqsir etməsin,
Oldu bir cövşən xədəngi-şiddəti-sərmayə kürk [4, s. 179].

Molla Pənah Vaqifin Vətən təbiətinin gözəlliklərindən bəhs edən digər məşhur "Hayıf ki, yoxdur" şeirində isə nikbinliklə ictimai narazılığın birlikdə bədii təsviri diqqəti cəlb edir:

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur!
Ucu tər cığalı siyah tellərin
Hərdən tamaşası, hayıf ki, yoxdur! [1, s.370]

Şeirdəki təəssüf hissi, əslində, şairin öz Vətəninə açıq ünvanla müraciəti, ritorik yanaşması idi. Yəni, bu qədər gözəlliklərə ("əcəb seyrəngahı", "qış günü qışlağı", "gözəl obası", "adamlıq ədası") sahib olan Vətənimizin bənzərsiz tərənnümü ilə yanaşı, məntiqi cəhətdən bu gözəlliklərin qarşısında bir iddia - "niyə olmasın ki?", "olmalıdır" prinsipi dayanırdı:

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,

Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur! [1, s.370]

Göründüyü kimi, bu, Kür qırağının timsalında bütövlükdə Azərbaycanımız – Vətənimiz haqqında yazılmış dərin məzmunlu şeirdir. Mövcud vəziyyətdən yaranan təəssüf hissi olsa da, bütövlükdə "cümlə cahanın" gözü olan ana yurdumuzun təbiətinin, havasının, suyunun, torpağının misilsizliyi tərənnüm edilir və şairin qürur hissinin təcəssümü kimi dəyərləndirilir. Şeirdəki bədii təzad yardan fikirlər - tənqid, təəssüf, giley, müşahidə həm Vaqifin yaradıcılığının və həm də onun yaratdığı erkən realizm ədəbi cərəyanının xarakterik əlamətləri ilə səsləşir.

Beləliklə, milli ədəbiyyatımız tarixində Molla Pənah Vaqif klassik azərbaycançılıq təfəkkürünün poetik təməllərini yaradan və bu ideyanı layiqincə təmsil edən, vətənpərvər, qüdrətli söz sənətkarıdır. Onun bədii yaradıcılığının elm və təhsil müəssisələrində təbliği və tədrisi strateji əhəmiyyət daşımalı, tədris zamanı auditoriyada təbiət, cəmiyyət və şəxsiyyət haqqındakı düşüncələrin məntiqi inkişafına, dünyagörüşün formalaşmasına təsir etməlidir.

**Ədəbiyyat**


1. Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. III cild, Bakı, "Şərq-Qərb", 2005.
2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, Bakı, 1979.
3. Həbibbəyli İ. Molla Pənah Vaqif yaradıcılığında xalq həyatı və ölkə coğrafiyası. 525-ci qəzet, 2021, 28 avqust, s.16-17.
4. Molla Pənah Vaqif. Əsərləri. Bakı, "Şərq-Qərb", 2004.